# Azərbaycan yarışları 184 medalla 2-ci yerdə başa vurdu













**III MDB Oyunlarının son günündə bir idman növü üzrə yarışlar keçirilib. Şəki Olimpiya İdman kompleksində bədii gimnastika yarışlarında son mükafatçılar məlum olub.**

Azərbaycanın bədii gimnastika üzrə milli komandasının üzvləri komanda hesabında halqalarla və gürzlərlə qrup hərəkətlərində bürünc medallar qazanıblar. Nur Sadıqova, Şəms Ağahüseynova, Fidan Qurbanlı və Azadə Atakişiyeva yüksək nəticə göstərərək yekunda üçüncü olublar. Azadə Atakişiyeva həmçinin çoxnövçülük yarışında gümüş medal qazanıb.

Bundan başqa, fərdi yarışda Nur Sadıqova halqalarla bürünc, Azadə Atakişiyeva topla lentlərlə hərəkətlərdə gümüş medallara sahib olublar. Fidan Qurbanlı isə gürzlərlə gümüş medala sahiblənib. Beləliklə, Azərbaycan gimnastları III MDB Oyunlarını 8 medalla başa vurublar. İdmançılarımız ümumilikdə 4 gümüş və 4 bürünc medal qazanıblar.

Bununla da Azərbaycan Oyunları ümumilikdə 184 medalla ikinci yerdə başa vurub. Medalların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. İlk sırada Rusiya qərarlaşıb, 3-cü yerə Belarus sahiblənib.

Qeyd edək ki, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), II-də isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal qazanmışdı.

III MDB Oyunlarında 10 ölkənin idmançıları medal əldə ediblər. Ümumilikdə, yarışlara 13 ölkənin atletləri qatılmışlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-9 oktyabr (№ 217).- S.12.